**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**RƏŞADƏ FƏXRƏDDİN qızı QULİYEVA**

# QRUP HALINDA TÖRƏDİLƏN TAMAH-ZORAKI CİNAYƏTLƏRİN İSTİNTAQININ TAKTİKİ-PROSESSUAL XÜSUSİYYƏTLƏRİ

**İXTİSAS: 5612.01 – «Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti»**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2018**

Dissertasiya işi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **hüquq üzrə elmlər doktoru, professor F.M.CAVADOV** |
| **Rəsmi opponentlər:** | **hüquq üzrə elmlər doktoru, professor M.S.QƏFƏROV.**<br>**hüquq üzrə fəlsəfə doktoru F.Y.XƏLİLOV.** |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası** |

Dissertasiya işinin müdafiəsi «___» «______________» 2018-ci il tarixdə saat «_____» Bakı Dövlət Universiteti nəzdində təşkil edilmiş B/FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» «_______________» 2018-ci il tarixdə göndərilmişdir.

**B/FD.02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru, dosent: Ə.Q.MƏMMƏDOV**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı**. XX əsrin 90-cı illərində müstəqilliyini bərpa edərək dünyəvi, demokratik, hüquqi dövlətin qurulması istiqamətində inamlı addımlar atan Azərbaycan dövlətinin, onun hüquq-mühafizə orqanları qarşısında duran ən mühüm vəzifələrdən biri də ictimai münasibətlərin təkmilləşdirilməsi, qanunçuluğun və hüquq qaydasının, ictimai təhlükəsizliyin və asayişin təmin edilməsi, cinayətkarlığın ən təhlükəli formalarından biri olan qrup halında törədilən cinayətlərlə mübarizənin səmərəliliyinin yüksəldilməsindən ibarətdir. Belə ki, yeni sosial, iqtisadi və hüquqi münasibətlər şəraitində bir sıra kriminogen amillər sosial bəla xarakteri almış və cinayətkarlığın keyfiyyətcə dəyişməsinə, strukturunda ağır tamah-zorakı cinayətlərin xüsusi çəkisinin artmasına, cinayətlərin yeni forma və növlərinin yaranmasına gətirmişdir.

Son illərdə cinayətkarlığın motivasiya sistemində tamah əsas motivlərdən birinə çevrildiyi, tamah-zorakı cinayətkarlığın xüsusi çəkisinin isə xeyli artdığı və cinayətkarlığın ən dinamik və təhlükəli formalarından birinə çevrildiyi, cinayətkar qruplar tərəfindən törədilən quldurluq, hədə-qorxu ilə tələb etmə və digər tamah-zorakı cinayətlərin böyük ictimai təhlükə kəsb etdiyi qeyd edilməlidir. Qrup halında törədilən qeyd olunan cinayətlər bir sıra hallarda digər cinayətlərin, o cümlədən adam öldürmə, sağlamlığa ağır zərər vurma, zorlama, özgə əmlakını qəsdən məhv etmə ilə müşayiət olunur. Zərərçəkənin (qurbanın) müqavimətini qırmaq və onun üzərində tam nəzarəti əldə etmək məqsədilə, cinayətkar qrupların üzvləri odlu və soyuq silahdan istifadə etməkdən belə çəkinmirlər. Tamah-zorakı xarakterli cinayətlərin qrup halında törədildiyi hallarda vurulan ziyan xeyli artır.

Cinayət statistikanın materialları, seçmə tədqiqatlar, dünyanın bir çox ölkələrində, o cümlədən Azərbaycanda son illərdə qrup halında törədilən tamah-zorakı cinayətlərin (soyğunçuluq, quldurluq, hədə-qorxu ilə tələb etmə, tamah məqsədilə qəsdən adam öldürmə və s.) artdığını göstərir.

Azərbaycan Respublikası Daxili işlər Nazirliyinin rəsmi statistik məlumatlarının təhlili göstərir ki, 2012-ci ildə Azərbaycanda qeydə alınmış 21897 cinayət hadisəsinin 1577-si (7,2%) qrup halında, o cümlədən 371-i (qrup halında törədilən cinayətlərin 23,5%-i) bir qrup şəxs tərəfindən, 1117-i (70,8%) qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən, 89-u (5,6%) isə mütəşəkkil dəstə tərəfindən törədilmişdir. 2016-cı ildə Azərbaycanda qeydə alınmış 26611 cinayət hadisəsinin 2258-i (8,5%) qrup halında, o cümlədən 142-i (6,3%) bir qrup şəxs, 1911-i (84,6%) qabaqcadan əlbir olan bir qrup şəxs, 205-i (9,1%) isə mütəşəkkil dəstə tərəfindən törədilmişdir.

Göründüyü kimi, 2012-ci illə müqayisədə 2016-cı ildə qrup halında törədilən cinayətlərin sayında sabit artım meyli müşahidə olunmuşdur. Həmçinin bu illər ərzində qrup halında törədilən cinayətlərin strukturunda qabaqcadan əlbir olan bir qrup şəxs və mütəşəkkil dəstə tərəfindən törədilən cinayətlərin xüsusi çəkisində də əhəmiyyətli artım baş vermişdir ki, bu meyl də ciddi narahatlıq doğurur.

Qeyd olunan rəqəmlər bir tərəfdən qrup halında həyata keçirilən cinayətkar fəaliyyətin kifayət qədər geniş yayıldığını göstərir. Digər tərəfdən, məhkəmə-istintaq təcrübəsinin göstərdiyi kimi, qrup halında tamah məqsədilə törədilən zorakı cinayətlərin istintaqı zamanı yaranan çətinliklər bir çox cəhətdən belə cinayətlərin açılması və istintaqının elmi zəmin, müasir reallıqlara adekvat cavab verən elmi-metodiki, təşkilati-texniki, taktiki-prosessual baza əsasında aparılmamasından da irəli gəlir.

Azərbaycanda tamah məqsədilə törədilən və zorakılıqla müşayiət olunan bir sıra cinayət növləri ayrı-ayrılıqda cinayət-hüquqi və kriminoloji aspektlərdə tədqiq edilsə də, eyni zamanda respublikada tamah, zorakılıq və qrup halında törədilmə kimi əlamətlərlə səciyyələnən cinayət növləri (qrup halında və zorakılıqla törədilən soyğunçuluq, qrup halında törədilən quldurluq, qrup halında törədilən tamah məqsədilə qəsdən adam öldürmə və s.) kriminalistik baxımdan kompleks şəkildə, elmi cəhətdən araşdırılmamış, cinayətkar qrupların və onlar tərəfindən törədilən tamah-zorakı cinayətlərin kriminalistik xarakteristikası, bu növ cinayətkar fəaliyyətin istintaqı zamanı yaranan tipik istintaq şəraitləri, tipik istintaq fərziyyələri, onların irəli sürülməsi və yoxlanılması, təxirəsalınmaz və digər hallarda hadisə yerinə baxış, dindirmə, tanınma və sair kimi istintaq hərəkətləri sistemli şəkildə öyrənilərək araşdırılmamışdır.

Kriminal qruplar tərəfindən törədilən cinayətlərin istintaqının elmi-texniki, metodiki və cinayət-prosessual xüsusiyyətlərinin kompleks analizinə həsr olunmuş əhatəli elmi işlər yox dərəcəsindədir; ayrı-ayrı işlərdə bu problemin yalnız müəyyən aspektlərinə toxunulduğundan, cinayətkar dəstələr tərəfindən törədilən tamah-zorakı cinayətlərlə mübarizənin kriminalistik təminatının yaradılması məsələlərinin hüquq ədəbiyyatında tam və dolğun həll edildiyini söyləmək olmaz.

Məhkəmə-istintaq təcrübəsi yeni tədqiqatların aparılmasının, bu növ kriminal əməllərin açılması, istintaqı və qarşısının alınmasının müasir reallıqlara uyğun elmi zəmin əsasında təşkilinin, zorakılıq və tamah kimi ümumi əlamətlərlə xarakterizə olunan qrupp halında törədilən cinayətlərin kriminalistik xarakteristikasının öyrənilməsi, qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqının taktiki-prosessual aspektləri kompleks şəkildə araşdırılması zəruriliyini göstərir.

Bu baxımdan istər qrup halında törədilən zorakı cinayətlərin istintaqı

üzrə tövsiyələrin, istərsə də bu növ kriminal əməlləri törədən cinayətkar qrupların kriminalistik xarakteristikasının işlənib hazırlanması aktuallıq və elmi maraq kəsb edir.

Bütün bunlar isə yeni sosial-iqtisadi və hüquqi münasibətlər şəraitində qrup halında tamah məqsədilə törədilən zorakı cinayətlərin istintaqının taktiki-prosessual aspektlərinin elmi tədqiqinin, bu növ cinayətlərə dair işlər üzrə istintaqın ilkin və sonrakı mərhələsində tipik istintaq şəraitlərinin və fərziyyələrin müəyyən edilməsinin, ayrı-ayrı istintaq hərəkətlərinin təşkili və keçirilməsinin taktiki-prosessual xüsusiyyətlərinin araşdırılmasının zəruriliyini və aktuallığını göstərir.

Problemin kifayət qədər elmi cəhətdən işlənilməməsi və eyni zamanda onun böyük təcrübi əhəmiyyəti, dissertasiya tədqiqatı mövzusunun seçilməsini şərtləndirmişdir.

**Mövzunun işlənilmə dərəcəsi**. Cinayətkar dəstə və qruplar – müxtəlif ictimai elmlər, o cümlədən sosiologiya, psixologiya, kriminologiya, cinayət hüququ, habelə kriminalistika və digər elmlər tərəfindən öyrənilən çoxaspektli hadisədir.

Cinayətkar qrupların psixoloji aspektləri, kriminal strukturlar tərəfindən törədilən tamah-zorakı cinayətlərin açılması və istintaqı zamanı yaranan psixoloji xarakterli məsələlər V.L.Vasilyev, V.V.Romanov, A.R.Ratinov, L.N.Kostina və başqaları tərəfindən tədqiq edilmişdir.

Cinayətkar qrupları xarakterizə edən cinayət-hüquqi və kriminoloji əlamətlər, qrup halında törədilən cinayətlərlə, o cümlədən tamah-zorakı cinayətlərlə mübarizə sahəsində yaranan cinayət-hüquqi və kriminoloji xarakterli problemlər dissertasiya tədqiqatı səviyyəsində N.Y.Klimenko, D.B.İlyasov, E.V.Deyneqa, N.E.Medvedeva, P.V.Aqapov, E.İ.Dudkina və digərləri tərəfindən araşdırılmışdır.

Cinayətkar qruplar tərəfindən törədilən kriminal əməllərin istintaqı problemlərinə həsr olunmuş və dissertasiya işləri çərçivəsində həyata keçirilmiş kriminalistik və cinayət-prosessual istiqamətli elmi araşdırmalar sırasında A.R.Onuçin (cinayətin qrup halında törədilməsi əlamətlərinin üzə çıxarılması və belə cinayətlərin istintaqı xüsusiyyətləri, 1970), T.V.Kolesnikova (Hədə-qorxu ilə tələb etmə əməllərini törədən cinayətkar qrupların kriminalistik xarakteristikası, 2000), İ.İ.Klimenko (Mühafizə olunan ərazilərdə mütəşəkkil qruplar tərəfindən törədilən quldur basqınlarına dair işlər üzrə istintaq problemləri, 2001), A.V.Kunitsina (Mütəşəkkil cinayətkar fəaliyyətin kriminalistik nəzəriyyəsinin əsasları, 2001), S.N.Xorunciy (Kriminalistikada izlər və qrupp halında törədilən cinayətlərin istintaqı zamanı onların aşkarı və istifadəsi xüsusiyyətləri, 2001), A.Y.Şapoşnikov (Narkotik vasitələrin qanunsuz dövriyyəsi sahəsində fəaliyyət göstərən cinayətkar qrupların kriminalistik xarakteristikası, 2001), V.V.Qorodilov

(Mütəşəkkil cinayətkar qruplar tərəfindən törədilən cinayətlərin istintaqının təşkilati və taktiki aspektləri, 2002), M.A.Zelinski (çoxepizodlu qrupp cinayətlərinin istintaqı, 2003), İ.V.Kurtınov (Vətəndaşların mənzillərindən soyğunçuluq və quldurluq əməllərini törədən cinayətkar qrupların kriminalistik xarakteristikası, 2003), S.A.Vetskaya (Yeniyetmələrdən ibarət qruplar tərəfindən törədilən soyğunçuluq və quldurluq cinayətlərinin istintaqının ilkin mərhələsi, 2006), N.A.Podolnıy (Gənclərdən ibarət mütəşəkkil qruplaşmalar tərəfindən törədilən cinayətlərin açılması və istintaqının nəzəri və praktiki əsasları, 2007), E.S.Kramskaya (Yeniyetmələrdən ibarət qruplar tərəfindən tördilən soyğunçuluq və quldurluğun istintaqı metodikası, 2008), İ.S.Qvozdeva (Yeniyetmələr tərəfindən qrupp halında törədilən tamah-zorakı cinayətlərin istintaqı zamanı xüsusi biliklərdən istifadə, 2008), O.P.Berdnikova (Mütəşəkkil qruplar tərəfindən törədilən soyğunçuluq və quldurluğun istintaqı xüsusiyyətləri, 2010), O.V.Maslov (Qarşıdurma şəraitində bir qrup şəxs tərəfindən törədilən quldurluq əməllərinin istintaqı, 2010) və başqalarının monoqrafik tədqiqatlarını xüsusi olaraq qeyd etmək lazımdır.

Qeyd edək ki, cinayətkar qruplar tərəfindən törədilən cinayətlərin istintaqının kriminalistik problemləri daha geniş şəkildə V.M.Bıkovun elmi əsərlərində işıqlandırılmış, onun tərəfindən XX əsrin 90-cı illərinin əvvəllərində qrup halında törədilən cinayətlərin istintaqı problemlərinə həsr olunmuş «Qrup halında törədilən cinayətlərin istintaqı problemləri» (1992) mövzusunda doktorluq dissertasiyası səviyyəsində araşdırılmışdır.

Azərbaycan hüquqşünasları (Ç.A.Qənizadə, A.E.Qasımov, N.K.Əliyev və s.) tərəfindən cinayətkar qrupların, xüsusən də qabaqcadan əlbir olan bir qrup şəxs və mütəşəkkil dəstə krimi kriminal qrupların bir sıra kriminoloji və cinayət-hüquqi xüsusiyyətləri, o cümlədən qabaqcadan əlbir olan bir qrup şəxs və mütəşəkkil dəstə tərəfindən törədilən kriminal əməlllərlə cinayət-hüquqi mübarizə məsələləri dissertasiya işi səviyyəsində nəzəri və praktiki aspektlərdən tədqiq edilmişdir. A.T.Müslümovun dissertasiya işində isə mütəşəkkil cinayətkar dəstələr tərəfindən törədilən cinayətlərin açılması və istintaqının əməliyyat-axtarış və informasiya təminatı, bu növ kriminal əməllərin istintaqı metodikasının qurulmasının ümumi prinsipləri və sairə ilə bağlı məsələlər dairəsi nəzərdən keçirilmişdir.

Göründüyü kimi, Azərbaycanda qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqı zamanı yaranan elmi-metodiki, təşkilati-taktiki və prosessual xarakterli problemlər dissertasiya tədqiqatının predmeti olmamışdır.

**Tədqiqatın obyektini** cinayətkar qruplar tərəfindən törədilən tamah-zorakı cinayətlərin kriminalistik xarakteristikası və onun struktur elementləri, bu kateqoriyalı cinayətlərin istintaqı zamanı yaranan tipik

istintaq şəraitləri və istintaq fərziyyələri, ayrı-ayrı istintaq hərəkətlərinin təşkili və aparılmasının taktiki və prosessual xüsusiyyətləri təşkil edir.

**Tədqiqatın predmeti** qismində tamah-zorakı cinayətləri törədən cinayətkar qrupların yaranması, təşəkkülü və fəaliyyəti qanunauyğunluqları, bu qruplar tərəfindən törədilən tamah-zorakı cinayətlərin istintaqı zamanı yaranan təşkilati, taktiki, prosessual və sair xarakterli qanunauyğunluqlar, bu kateqoriyalı cinayətlərin istintaqı zamanı hadisə yerinə baxış, dindirmə, tanınma və digər istintaq hərəkətlərinin aparılması taktikasının qanunauyğunluqları çıxış edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın **məqsədi** cinayətkar qrupların, onlar tərəfindən törədilən tamah-zorakı cinayətlərin kriminalistik xarakteristikasının, onun strukturunun, bu struktura daxil olan əsas elementlərin mahiyyətinin, tamah-zorakı cinayətlərin törədilməsinə istiqamətlənən cinayətkar qrupların yaranma və formalaşma xüsusiyyətlərinin və qanunauyğunluqlarının öyrənilməsi və analizi əsasında bu kateqoriyalı cinayətlərə dair işlər üzrə tipik istintaq şəraitləri, istintaqın proqramlaşdırılması, fərziyyələrin irəli sürülməsi və yoxlanılması, hadisə yerinə baxış, dindirmə, tanınma və sair kimi istintaq hərəkətlərinin keçirilməsi ilə bağlı bir sıra taktiki-prosessual xarakterli tövsiyələrin, istintaq hərəkətlərinin təşkili və aparılması ilə bağlı ayrı-ayrı məsələləri tənzimləyən cinayət-prosessual qanunvericiliyin təkmilləşdirilməsi ilə əlaqədar konkret təkliflər paketinin işlənib hazırlanmasından ibarətdir.

Bu məqsədə nail olmaq üçün dissertasiya tədqiqatı qarşısında aşağıdakı **vəzifələr** qoyulmuşdur:

- qrup halında törədilən tamah-zorakı cinayətlərin müasir vəziyyətinin və əsas meyllərinin təhlili;
- qrup halında tərədilən soyğunçuluq, quldurluq, tamah məqsədilə qəsdən adam öldürmə və digər tamah-zorakı cinayətlərin açılması və istintaqı, ayrı-ayrı istintaq hərəkətlərinin təşkili və keçirilməsi ilə bağlı məhkəmə-istintaq və ekspert təcrübəsinin öyrənilməsi;
- bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və mütəşəkkil dəstə kimi cinayətkar qrupların kriminalistik xarakteristikasının verilməsi;
- qrup halında törədilən tamah-zorakı cinayətlərin kriminalistik xarakteristikasının, onun struktur elementlərinin mahiyyət və məzmunun təhlili;
- qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqı zamanı təşəkkül tapan tipik istintaq şəraitlərinin mahiyyət və məzmunun təhlili;
- qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqı gedişində istintaq fərziyyələrinin, onların irəli sürülməsi və yoxlanılması, istintaqın proqramlaşdırılması məsələlərinin araşdırılması;
- qrup halında törədilən cinayətlərin istintaqında hadisə yerinə baxış,

dindirmə və digər istintaq hərəkətlərinin təşkili və aparılmasının taktiki-prosessual xüsusiyyətlərinin öyrənilməsi;

- cinayətkar qrupların kriminal fəaliyyətinin ifşası və bu qurumların təşkilatçılarının (liderinin) üzə çıxarılmasına istiqamətlənmiş taktiki üsulların və taktiki kombinasiyaların nəzərdən keçirilməsi və təhlili;
- qrup halında törədilən soyğunçuluq, quldurluq, tamah məqsədilə qəsdən adam öldürmə və digər bu kateqoriyalı cinayətlərə dair işlər üzrə sübutetmə prosesində məhkəmə ekspertizalarının, ekspert rəylərinin rolu və əhəmiyyətinin öyrənilməsi;
- qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqının səmərəliliyinin yüksəldilməsinə, o cümlədən cinayət-prosessual qanunvericiliyin təkmilləşdirilməsinə yönələn təşkilati-texniki və taktiki-prosessual xarakterli təkliflər və tövsiyələr paketinin irəli sürülərək əsaslandırılması.

**Tədqiqatın metodoloji əsasını** ümumelmi yanaşma olan dialektik metod, sistemli-struktur analiz, həmçinin idrakın bir sıra digər ümumelmi metodları təşkil edir: müşahidə, təsvir, müqayisə, məntiqi və tarixi-hüquqi analiz, modelləşdirmə, rekonstruksiya və s. Tamah-zorakı cinayətlər üzrə «ixtisaslaşan» cinayətkar qrupların tədqiqi metodlarından biri qismində bu növ cinayətlər üzrə cinayət işlərinin materiallarının öyrənilməsi çıxış etmişdir. Bu metod xüsusi sosioloji metodla (hüquq-mühafizə orqanlarının əməkdaşları arasında keçirilən sorğular) tamamlanmışdır.

**Tədqiqatın normativ bazası** qismində Azərbaycan Respublikasının Konstitusiyası, cinayət və cinayət-prosessual qanunvericilik, həmçinin tədqiqat mövzusu ilə bağlı Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarları və sair çıxış edir.

**Tədqiqatın empirik bazasını** aşağıdakılar təşkil edir:

- Azərbaycan Respublikasında 2003-2016-cı illəri əhatə edən dövr üzrə qeydə alınmış cinayətlər, o cümlədən bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və mütəşəkkil cinayətkar dəstələr tərəfindən törədilən cinayətlərin vəziyyəti və dinamikasını əks etdirən statistik məlumatlar;
- qrup halında tamah-zorakı cinayətlərə (soyğunçuluq, quldurluq, tamah məqsədilə qəsdən adam öldürmə və s.) dair cinayət işlərinin materialları;
- qrup halında törədilən tamah-zorakı cinayətlərlə bağlı məhkəmə ekspertizası təcrübəsi və bu təcrübənin ümumiləşdirilməsi nəticələri;
- tamah-zorakı cinayətlərin istintaqı və təhqiqatı ilə məşğul olan hüquq-mühafizə orqanlarının əməkdaşları, müstəntiqlər, prokurorlar və hakimlər arasında keçirilən sorğu nəticələri.

**Tədqiqatın nəzəri əsasları.** Tədqiqatın nəzəri əsasını kriminalistik və cinayət-prosessual hüquq sahəsində müasir ədəbiyyat təşkil etmişdir. Dissertasiya mövzusu üzrə həyata keçirilən elmi araşdırmalar gedişində C.H.Mövsümov, F.Y.Səməndərov, F.M.Cavadov, C.İ.Suleymanov,

F.M.Abbasova, K.Q.Sarıcalinskaya, M.Ə.Cəfərquliyev, N.K.Əliyev, M.S.Qəfərov, K.N.Səlimov, B.M.Əsgərov, R.S.Belkin, V.M.Bıkov, A.N.Vasilyev, N.P.Yablokov, İ.A.Vozqrin, L.Y.Drapkin, A.V.Dulov, Q.Q.Zuykov, A.M.Larin, İ.M.Luzqin, O.P.Onuçin, N.İ.Porubov, A.R.Ratinov və digər hüquqşünas-alimlərin elmi əsərlərindən yaradıcı şəkildə istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** onunla şərtlənir ki, Azərbaycanda ilk dəfə olaraq, tamah-zorakı xarakterli cinayətlərin istintaqının taktiki-prosessual xüsusiyyətləri kompleks şəkildə, sistemli-struktur analiz əsasında nəzərdən keçirilərək araşdırılmış, qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqının elmi-nəzəri, təşkilati-texniki və taktiki-prosessual əsaslarının təkmilləşdirilməsinin əsas istiqamətləri müəyyən edilmiş, bu növ kriminal əməllərin istintaqı prosesinin, hadisə yerinə baxış, dindirmə, tanınma və sair kimi istintaq hərəkətlərinin təşkili və keçirilməsinin səmərəliliyinin yüksəldilməsinə, cinayət-prosessual qanunvericiliyin təkmilləşdirilməsinə yönələn konkret təkliflər və tövsiyələr işlənib hazırlanmışdır.

Müdafiəyə aşağıdakı **yeni elmi müddəalar** təqdim edilir:

- cinayətkar qrupların bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və mütəşəkkil dəstə kimi növlərinin dəqiqləşdirilmiş kriminalistik anlayışı, bu qrupları bir-birindən fərqləndirən kriminalistik əlamətlər məcmusu verilmişdir;
- tamah-zorakı cinayətləri törədən cinayətkar qrupların kriminalistik xarakteristikasının dəqiqləşdirilmiş müəllif anlayışı, bu kateqoriyalı cinayətlərin kriminalistik xarakteristikasının məzmun və mahiyyət etibarı ilə «qrup halında törədilən, tamah və zorakılıq kimi əlamətlərlə xarakterizə olunan kriminal əməllərin informasiya modeli» olması kimi definisiyası təklif edilmişdir;
- qrup halında törədilən tamah-zorakı cinayətlərin kriminalistik xarakteristikasının strukturu, elementlər sistemi müəyyən edilmişdir;
- tamah-zorakı cinayətləri törədən cinayətkar qrup üzvünün tipik portreti, cinayətkar qrupun liderini səciyyələndirən əsas əlamətlər kompleksi müəyyən edilmişdir;
- qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqı zamanı yaranan tipik istintaq şəraitləri və istintaq fərziyyələri göstərilmişdir;
- qrup halında törədilən cinayətlərin istintaqa zamanı hadisə yerinə baxış, dindirmə, tanınma və sair kimi istintaq hərəkətlərinin təşkili və keçirilməsinin səciyyəvi taktiki-prosessual xüsusiyyətləri müəyyən edilmişdir;
- bu kateqoriyalı cinayətlərin istintaqının səmərəliliyinin yüksəldilməsi, şahidlərin və zərərçəkənlərin təhlükəsizliyinin təmini məqsədilə distansion dindirmədən istifadənin mümkünlüyü əsaslandırılmışdır;

- qrup halında törədilən xüsusilə ağır, mürəkkəb və çoxepizodlu cinayətlərin istintaqında ayrı-ayrı istintaq hərəkətlərinə mütəxəssislərin cəlb edilməsinin məcburiliyi haqqında müddəanın prosessual qanunvericiliyə daxil edilməsi təklif edilmişdir;

- tamah-zorakı cinayətlərin törədilməsində cinayətkar qrupların hər bir üzvünün rolunun, bu qrupların fəal üzvlərinin, sıravi icraçılarının, habelə qrupun liderinin müəyyən edilməsi məqsədilə məhkəmə-psixoloji ekspertizasının təyini və keçirilməsinin böyük əhəmiyyət kəsb etməsi əsaslandırılmış, bununla bağlı məhkəmə-psixoloji ekspertizası qarşısında qoyulması mümkün olan suallar dairəsi müəyyən edilmişdir;

- qrup halında törədilən tamah-zorakı cinayətlərin açılması və istintaqında telekommunikasiya vasitələrindən, müasir informasiya texnologiyalarından, o cümlədən videokonfrans əlaqə sistemlərindən istifadənin məqsədəuyğunluğu əsaslandırılmışdır;

- qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqında tanınma kimi istintaq hərəkətinin təşkili və aparılmasında videoçəkiliş vasitələrindən, rəqəmsal fotoqrafiyadan istifadənin məqsədəuyğunluğu əsaslandırılmışdır;

- qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqında insanın yeriş, səs, şifahi nitq və sair kimi dinamik və funksional əlamətlərindən kriminalistik əhəmiyyət kəsb edən istiqamətverici informasiya mənbəyi kimi tanınma zamanı istifadənin mümkünlüyü əsaslandırılmışdır;

- cinayət-prosessual qanunvericilikdə «əməliyyat-istintaq qrupu tərəfindən araşdırmanın aparılması» kimi ayrıca bir maddənin nəzərdə tutulması və burada mürəkkəb, çoxepizodlu, habelə qabaqcadan əlbir olan bir qrup şəxs və mütəşəkkil dəstə tərəfindən törədilən ağır və xüsusilə ağır cinayətlərin istintaqının əməliyyat-istintaq qrupu tərəfindən aparılması ilə bağlı müddəaların öz əksini tapması təklif edilmişdir;

- qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqının səmərəliliyinin yüksəldilməsi məqsədilə cinayət-prosessual qanunvericiliyin dindirmə, üzləşdirmə, tanınma və sair kimi istintaq hərəkətlərinin aparılması əsaslarını və qaydalarını tənzimləyən ayrı-ayrı normalara əlavələrin və dəyişikliklərin edilməsi təklif edilmişdir;

- bir sıra ağır və xüsusilə ağır cinayətlərin, o cümlədən qrup halında, xüsusən də mütəşəkkil dəstələr tərəfindən törədilən tamah-zorakı xarakterli cinayətlərin açılması, istintaqı və qarşısının alınmasında «istintaq sövdələşməsi» kimi institutun Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə daxil edilməsinin məqsədəuyğunluğu əsaslandırılmışdır;

- Azərbaycan Respublikası CPM-də «İstintaq hərəkətlərinin aparılması» adı altında ayrıca bir fəslin nəzərdə tutulması və bu fəsildə

«istintaq hərəkətlərinin aparılmasının ümumi şərtləri», «istintaq hərəkəti protokolu», «istintaq qrupu tərəfindən ibtidai araşdırmanın aparılmasının ümumi şərtləri», «istintaq hərəkətlərinin aparılmasında mütəxəssisin, ekspertin, tərcüməçinin, hal şahidlərinin iştirakı», «istintaq hərəkətlərinin icraatında elmi-texniki vasitələrin və üsulların tətbiqinin ümumui şərtləri» və sair kimi maddələrin daxil edilməsi təklif edilmişdir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti** əldə edilən nəticələrin, müdafiəyə təqdim olunan müddəaların, irəli sürülən və əsaslandırılan konkret təkliflərin aşağıdakı istiqamətlərdə istifadə edilməsi ilə müəyyən olunur:

- qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqının təşkili və keçirilməsində;
- ali məktəblərin hüquq fakultələrində, polis akademiyasında tədris prosesində, xüsusi kursların aparılmasında;
- hüquq-mühafizə orqanarının ayrı-ayrı istintaq hərəkətlərinin təşkili və keçirilməsi, taktiki üsulların və onların kombinasiyalarının, müəyyən qaydaların və alqoritmlərin işlənib hazırlanması üzrə praktiki fəaliyyətində;
- qrup halında törədilən soyğunçuluq, quldurluq və digər tamah-zorakı cinayətlərin istintaqı metodikalarının yaradılması üzrə elmi araşdırmalarda və s.

**Tədqiqat nəticələrinin aprobasiyası**. Elmi tədqiqatın ümumiləşdirilmiş nəticələri, müdafiəyə çıxarılan əsas müddəalar, formulə edilmiş təkliflər və tövsiyələr Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə olunan elmi jurnallarda məqalələr kimi dərc olunmuş, «Hüquq elminin müasir problemləri: Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları» mövzusuna həsr edilmiş elmi-praktiki konfransda konfranslarda məruzə edilmişdir. Monoqrafik araşdırma gedişində cinayət və cinayət-prosessual qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə işlənib hazırlanmış konkret təkliflər Azərbaycan Respublikası Milli Məclisinə təqdim olunmuş, aparılmış elmi-tədqiqatın nəticələrinin böyük təcrübi əhəmiyyətə malik olmaqla yanaşı, cinayət və cinayət-prosessual qanunvepriciliyin təkmilləşdirilməsi baxımından faydalı hesab edilməsi və gələcəkdə qanunvericiliyin təkmilləşdirilməsi prosesində nəzərə alınacağı barədə müsbət cavab alınmışdır.

**Dissertasiyanın strukturu**. Dissertasiya işi struktur etibarilə giriş, səkkiz yarımfəsli əhatə edən üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **«Giriş»** hissəsində tədqiqat mövzusunun aktuallığı, predmeti və obyekti, məqsəd və vəzifələri, elmi yeniliyi, problemin araşdırılma dərəcəsi, müdafiəyə çıxarılan əsas müddəalar, nəzəri, metodoloji və empirik əsasları, elmi və təcrübi əhəmiyyəti, tədqiqat nəticələrinin aprobasiyası, dissertasiyanın strukturu göstərilmişdir.

Dissertasiya işinin **«Cinayətkar qrupların və qrup halında törədilən tamah-zorakı cinayətlərin kriminalistik xarakteristikası»** adlanan və iki yarımfəsildən ibarət olan birinci fəslində cinayətkar qrupların və qrup halında törədilən tamah-zorakı cinayətlərin kriminalistik xarakteristikasının anlayışı, strukturu və əsas elementləri, habelə qrup halında törədilən tamah-zorakı cinayətlərin kriminalistik xüsusiyyətləri, tamah-zorakı xarakterli əməlləri törədən cinayətkar qrupların kriminalistik təsnifatı ilə bağlı məsələlər kompleksi nəzərdən keçirilərək araşdırılmışdır.

Bu fəslin **«Cinayətkar qrupların kriminalistik xarakteristikası»** adlanan birinci yarımfəslində qeyd olunur ki, qrup halında törədilən tamah-zorakı cinayətlərin vəziyyəti, quruluşu və dinamikasını əks etdirən rəsmi cinayət statistikası məlumatlarının öyrənilməsi və təhlili, bu kateqoriyalı kriminal əməllərə dair cinayət işlərinin materiallarının seçmə üsulla analizi və ümumiləşdirilməsi, sosioloji sorğuların nəticələri, son illərdə qrup halında həyata keçirilən tamah-zorakı cinayətlərin aşağıdakı meyllər və qanunauyğunluqlarla səciyyələndiyini göstərmişdir:

- qrup halında törədilən vətəndaşların evlərindən və mənzillərindən şəxsi əmlakın açıq yolla talanması hallarının artması, qrup halında həyata keçirilən küçə cinayətkarlığının azalması;

- cinayətkar qrupların tərkibcə xeyli «cavanlaşması», yalnız yeniyetmələrdən ibarət olan və ya tərkiblərində yeniyetmə və aşağı yaş həddli gənclərin üstünlük təşkil etdiyi cinayətkar qrupların sayının artması, bu tip qrupların ictimai təhlükəliliyinin yüksəlməsi;

- qrup halında törədilən tamah-zorakı cinayətlərin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi hallarının əhəmiyyətli dərəcədə artması, bununla yanaşı bu növ əməllərin bir qrup şəxs tərəfindən törədilməsi hallarının azalması;

- cinayətkar qrupların strukturunda xüsusi olaraq tamah-zorakı cinayətlərin törədilməsi üçün yaradılan mütəşəkkil dəstələrin xüsusi çəkisinin o qədər də yüksək olmaması; eyni zamanda son illərdə mütəşəkkil dəstələr tərəfindən törədilən tamah məqsədilə qəsdən adam öldürmə, quldurluq və sair kimi əməllərin də qeydə alınması;

- kortəbii formalaşdırılmış qruplarla tamah-zorakı cinayətlərin (xüsusilə soyğunçuluğun) baş vermə hallarının artması;

- zərərçəkmiş şəxsin sağlamlığına ağır və az ağır zərər vurmaqla

müşayiət olunan qrup halında tamah-zorakı əməllərin sayının, bu zaman vurulan maddi ziyanın həcminin artması və s.

Tamah-zorakı cinayətləri törədən cinayətkar qrupların aşağıdakı kriminalistik tiplərini (növlərini) ayırmaq olar: 1)təsadüf nəticəsində yaranan situativ qruplar (bir qrup şəxs); 2)ilkin olaraq qohumluq, yoldaşlıq, dostluq, qonşuluq və sair kimi münasibətlər zəminində təşəkkül tapan və tərkib etibarilə əsasən yeniyetmələrdən və gənclərdən ibarət olan qabaqcadan əlbir olan bir qrup şəxsdən ibarət qruplar; 3)mütəşəkkil cinayətkar dəstələr.

Dissertasiyada qeyd olunan qrupların, yəni situativ qrup (bir qrup şəxs) qabaqcadan əlbir olan bir qrup şəxsdən ibarət qrup və mütəşəkkil dəstə kimi qrupların hər birinin səciyəvi olmaqla yanaşı, həm də kriminalistik nöqteyi-nəzərdən əhəmiyyət kəsb edən xüsusiyyətləri, xarakterik kriminalistik əlamətləri müəyyən edilərək sistemləşdirilmişdir.

Qrup halında törədilən tamah-zorakı cinayətlərə dair cinayət işlərinin öyrənilməsi və təhlili əsasında belə bir nəticyəyə gəlmək olar ki, Azərbaycan Respublikasının CM-nin 34-cü maddəsində qeyd olunan bütün cinayətkar qrup növlərindən (bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə, cinayətkar birlik) bu növ cinayətlər əksər hallarda (70-80%) qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilir: belə qrupların say tərkibi, bir qayda olaraq, böyük deyildir (2-5 nəfər), onların tərkibində ən azı bir nəfərin cinayətkar təcrübəsi vardır; bu qruplar əksər halda xüsusi olaraq bir və ya bir neçə soyğunçuluq və ya quldurluq əməlinin törədilməsi üçün formalaşdırılır; onlar sadə iyerarxiya ilə səciyyələnirlər, yəni bu qruplarda təşkilati işləri öz üzərinə götürən və liderliyə meylli olan şəxs vardır.

Qrup halında quldurluq, tamah məqsədilə qəsdən adam öldürmə kimi cinayətləri törədən mütəşəkkil dəstələrin mahiyyətini əks etdirən sabitliyin meyarları olaraq aşağıdakıları qeyd etmək olar: qrup tərkibinin və təşkilati strukturunun sabitliyi; cinayətkar fəaliyyətin forma və metodlarının dəyişməzliyi; qrupun cinayətkar fəaliyyətinin uzunmüddətliyi; cinayətkar fəaliyyətin müntəzəmliyi; rolların paylanması; cinayətlərin törədilməsinə hazırlıq və planlaşdırma; cinayətlərin törədilməsi və cinayət hadisəsi yerinin tərk edilməsi üsullarının əvvəlləcədən müəyyən olunması; xüsusi kriminal bacarıqların mövcudluğu.

Tamah-zorakı yönümlü əməlləri törədən cinayətkar qrupun kriminalistik xarakteristikasının aşağıdakı anlayışı təklif edilir: «Tamah-zorakı xarakterli cinayətkar qrupun kriminalistik xarakteristikası - cinayətlərə hazırlıq, törədilməsi və gizlədilməsi zamanı ümumən bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə formasında təşkil olunmuş qrupun, habelə onun hər bir üzvünün davranış xüsusiyyətlərini və qanunauyğunluqlarını, eyni zamanda cinayətkar qrupun

üzvlərinin ibtidai araşdırmada və məhkəmə baxışında davranış xüsusiyyətlərini şərtləndirən, qrupun tamah-zorakı xarakter daşıyan cinayətkar fəaliyyəti ilə müəyyən olunan, sabit kəmiyyət-keyfiyyət xarakterli əlamətlər sistemindən, yəni informasiya modelindən ibarətdir.

Tamah-zorakı xarakter daşıyan əməlləri törədən cinayətkar qrupların kriminalistik xarakteristikasının əsas struktur elementləri qismində aşağıdakılar göstərilə bilər: cinayətkar qrupun kriminalistik tipi və səciyyəvi əlamətləri haqqında məlumatlar; qrupun funksional strukturu haqqında məlumatlar; cinayətkar qrupun əsas kriminal fəaliyyət istiqamətləri haqqında məlumatlar; cinayətlərin hazırlanması, törədilməsi və gizlədilməsinin tipik üsulları və onların həyata keçirilməsinin tipik vaxtı, yeri və s. haqqında məlumatlar; qrup üzvlərinin şəxsiyyəti barədə tipik məlumatlar; qrupun yaranması, formalaşması və fəaliyyət xüsusiyyətləri haqqında məlumatlar; cinayətkar qrupun liderini (təşkilatçısını) səciyyələndirilən əlamətlər kompleksi haqqında məlumatlar; cinayətkar qrupun sıravi üzvləri (icraçıları) arasında, habelə onlarla lider (təşkilatçı) arasında şəxsiyyətlərarası münasibətlərin xüsusiyyətləri haqqında məlumatlar və s.

Birinci fəslin **«Qrup halında törədilən tamah-zorakı cinayətlərin kriminalistik xarakteristikası: anlayışı, strukturu, əsas elementləri»** adlanan ikinci yarımfəslində «cinayətlərin kriminalistik xarakteristikası» anlayışı ilə bağlı hüquq ədəbiyyatında mövcud olan mövqelərin, fikir və mülahizələrin əhatəli və tənqidi baxımdan təhlili aparılmış, kriminalistik xarakteristikanın strukturu və əsas elementləri ilə bağlı müəllif mövqeyi formulə edilmiş, qrup halında törədilən tamah-zorakı cinayətlərin kriminalistik xarakteristikasının əsas struktur elementləri müəyyən edilərək sistemləşdirilmişdir.

Fikrimizcə, qrup halında törədilən tamah-zorakı cinayətlərin kriminalistik xarakteristikası məzmun və mahiyyət etibarilə bu növ cinayətkar fəaliyyətin kriminalistik əhəmiyyət kəsb edən əlamətlər məcmusu haqqında məlumatları özündə daşıyan informasiya modelidir.

Hesab edirik ki, qrup halında törədilən tamah-zorakı cinayətlərin kriminalistik xarakteristikasının əsas elementləri olaraq aşağıdakılar çıxış edir: 1)Cinayətkar qruplar tərəfindən kriminal əməllərin hazırlanması, törədilməsi və gizlədilməsi üsulları, cinayətkar fəaliyyət mexanizmi haqqında məlumatlar; 2)kriminal fəaliyyət gedişində cinayətkar qruplar tərəfindən istifadə olunan alətlər, elmi-texniki vasitələr, yardımçı qurğular, nəqliyyat vasitələri və sair haqqında məlumatlar; 3)tamah-zorakı yönümlü cinayətkar fəaliyyətin tipik maddi izləri və onların ən ehtimal olunan aşkar edilmə yerləri, habelə ideal izlər haqqında məlumatlar; 4)tamah-zorakı cinayətləri törədən cinayətkar qrup üzvlərinin, o cümlədən liderin

(təşkilatçının) şəxsiyyəti, hərəkət və davranış motivləri, məqsədləri, kriminal bacarıq və vərdişləri haqqında məlumatlar; 5)qrup halında törədilən tamah-zorakı cinayətlərdən zərərçəkənlərin şəxsiyyəti haqqında məlumatlar; 6)qrup halında törədilən tamah-zorakı cinayətlərin törədilməsinin şəraiti, yeri, vaxtı və digər hallar barədə məlumatlar.

Dissertasiyada qrup halında törədilən tamah-zorakı cinayətlərin kriminalistika xarakteristikasına bir sıra struktur elementlərinin (cinayətlərin törədilməsi üsulu və yeri, istifadə olunan alət və vasitələr, cinayətkar qrup üzvlərinin, xüsusən də onların liderlərinin və təşkilatçılarının şəxsiyyətinin tipoloji xüsusiyyətləri, bu növ kriminal əməllərdən zərərçəkənlərin şəxsiyyətinin tipik modeli) mahiyyət və məzmunu təhlil edilmiş, onların nəzərdən keçirilən cinayətlərə aidiyyatda xarakterik əlamətləri və cəhətləri müəyyən olunmuşdur.

Tərəfimizdən aparılmış sosioloji sorğuların nəticələrinə əsaslanaraq söyləyə bilərik ki, qrup halında törədilən tamah-zorakı cinayətlərin 59%-i payız-qış, 41%-nin isə yaz-yay aylarında törədilir; cinayət aləti keyfiyyətində daha çox, bıçaq (39%), daş, ağac parçası, armatur, balta, çəkic (25%) və digər vasitələrdən istifadə edilir.

Ümumiləşdirilmiş halda cinayətkar qruplar üçün xarakterik olan cinayətlərin törədilməsi yeri belə təsnifləşdirilə bilər: mənzillər, həyət evləri, bağ evləri – 34,2%; küçə, həyət, park, avtomobil yolu və s. kimi açıq ərazilər – 27,8%; taksi, yük maşını, şəxsi minik avtomobili və s. kimi nəqliyyat vasitələri - 16%; binaların girişi, mağazalar və s. – 13%; vağzallar, avtodayanacaqlar və bu kimi yerlər – 9%.

Tərəfimizdən keçirilən tədqiqatlar göstərir ki, tamah-zorakı cinayətləri törədən kriminal qrupların 40,6%-i bir ilə qədər, 35,2%-i altı aya qədər, 15,1%-i iki ilə qədər müddətə öz tamah-zorakı yönümlü kriminal fəaliyyətlərini həyata keçirə bilmişlər. Cinayətkar qrupların yalnız 9,1%-i 3-5 il ərzində mövcud olmuşlar.

Tədqiqatın **«Qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqı zamanı tipik istintaq şəraitləri və istintaq fərziyyələri»** adlanan və iki yarımfəsildən ibarət ikinci fəslində qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqı zamanı yaranan tipik istintaq şəraitləri: bu növ kriminal əməllərin istintaqı gedişində irəli sürülən istintaq fərziyyələri, habelə bu kateqoriyalı cinayətlərin istintaqının proqramlaşdırılması kimi məsələlər dairəsi sistemli şəkildə tədqiq edilmişdir.

İkinci fəslin «**Qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqı zamanı yaranan tipik istintaq şəraitləri»** adlanan birinci yarımfəslində «istintaq şəraiti» anlayışı və mahiyyəti, struktur elementləri, istintaq şəraitlərinin təsnifatı, «tipik istintaq şəraiti» anlayışı nəzərdən keçirilərək təhlil edilmiş, qrupp halında törədilən və zorakılıqla müşayiət

olunan soyğunçuluq, quldurluq, tamah məqsədilə qəsdən adam öldürmə kimi tamah-zorakı cinayətlərin istintaqın ilkin və sonrakı mərhələlərində təşəkkül tapan tipik istintaq şəraitlərinin mahiyyət və məzmun baxımından analizi həyata keçirilmişdir.

İstintaq şəraitinin obyektiv və subyektiv amilərin təsiri altında daima dəyişən dinamik sistem olduğu qeyd edilmiş, qrup halında tamah-zorakı cinayətlərə aidiyyatda bu dinamik sistemə təsir edən obyektiv və subyektiv xarakterli amillər sistemləşdirilmişdir. Belə ki, cinayətkar qruplar tərəfindən törədilən cinayətlərin istintaqının başlanğıc mərhələsində istintaq şəraitlərinin xarakterinə təsir edən ən əhəmiyyətli amillərə: kriminal fəaliyyətin istiqaməti; cinayətkar hərəkətlərin məzmunu (cinayətkar qəsdin obyekti və predmeti, cinayətkar hərəkətlərin yeri, vaxtı, üsulu, cinayətkarların sayı, cinayətin məqsədi, motivi və s.); cinayət hadisəsi haqqında informasiyanın xarakteri, tamlığı və keyfiyyəti; cinayət nəticəsində vurulmuş maddi və mənəvi zərər; cinayət haqqında ilkin informasiyanın yoxlanılması nəticələri (şübhəli şəxsin tutulması, şahidlərin və zərərçəkənlərin müəyyən edilməsi, talanmış əmlakın aşkar edilməsi, hadisə yerinə baxış zamanı əldə edilən məlumatlar, sorğulara cavabların alınması və s.); əməlin cinayətkar qrup tərəfindən törədilməsinə dəlalət edən məlumatlar və sair aid edilə bilər.

Məhkəmə-istintaq təcrübəsinin öyrənilməsi, xüsusi ədəbiyyatın təhlili əsasında qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqı zamanı təşəkkül tapan tipik istintaq şəraitləri qruplaşdırılmış, hər bir konkret şəraitdə həyata keçirilməsi məqsədəuyğun və zəruri olan istintaq və digər prosessual hərəkətlər, istintaq qarşısında duran əsas vəzifələr dairəsi müəyyən edilmiş, onların mahiyyət və məzmunu açılmış, hər bir konkret tipik istintaq şəraitlərinə uuyğun olaraq müstəntiqin taktiki-prosessual fəaliyyət alqoritmi təklif edilmişdir.

Bu fəslin «**Qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqı zamanı tipik istintaq fərziyyələri və istintaqın proqramlaşdırılması**» adlanan ikinci yarımfəslində qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqı zamanı təşəkkül tapmış şəraitlərə uyğun olaraq istintaq fərziyyələrinin irəli sürülməsi və yoxlanılması, habelə bu növ cinayətlərin istintaqının proqramlaşdırılması məsələləri sistemli şəkildə araşdırılmışdır. Cinayətkar qrupun bütün iştirakçıların rollarının müəyyən edilməsi, cinayət hadisəsi yerində qrup üzvlərinin hərəkətləri və onların ardıcıllığı ilə bağlı fərziyyələrin irəli sürülməsinin taktiki-psixoloji əsasları və vasitələri göstərilmişdir.

Qeyd olunan yarımfəsildə həmçinin göstərilmişdir ki, istintaqı aparılan cinayətin məhz bir qrup şəxs tərəfindən törədilməsi haqqında fərziyyəni irəli sürməyə imkan verən və kriminalistik nöqteyi-nəzərdən

əhəmiyyət kəsb edən məlumatlar hadisə yerinə baxış, dindirmə və digər təxirəsalınmaz istintaq hərəkətləri gedişində əldə edilə bilər. Məsələn, xüsusi halda cinayətin qrup xarakteri daşıdığını aşağıdakılar göstərə bilər: müxtəlif şəxslər tərəfindən qoyulmuş əl və ayaq izləri; müxtəlif markalı siqaret kötükləri, eyni bir markalı siqaretin kötüyünü dişləmək və əzməyin müxtəlif üsulları; istifadə olunmuş qabların, qaşıq və çəngəllərin sayı, yemək və içki qalıqları; müxtəlif odlu silah sistemlərinə məxsus gilizlər və patron gülləleri və ya bir sistemə məxsus olan, lakin müxtəlif lülələrdən çıxan giliz və patron gülləleri; eyni bir şəxsə məxsus olmayan qan, tüpürcək, ifrazat, sperma izləri; bir şəxs tərəfindən yerdəyişməsi və ya aparılması mümkün olmayan ağır predmetlərinin yerinin dəyişdirilməsi və ya aparılması faktları; talanmış əmlakın böyük həcmi; hadisə yeri tərk edilərkən bir neçə nəqliyyat vasitəsindən istifadə edilməsi və sair.

Son illərdə kompüterləşmənin geniş vüsət alması, elmi-texniki tərəqqi nəticəsində ən müasir informasiya-telekommunikasiya və kompüter texnologiyalarının yaranaraq gündəlik həyatımızın ən müxtəlif sahələrinə sürətlə daxil olması nəzərə alınmaqla müstəntiqin fəaliyyətinin də kompüterləşdirilməsi, cinayətlərin açılması və istintaqı üzrə fəaliyyətin ən müasir kompüter proqramları vasitəsilə həyata keçirilməsi zəruridir. Qrup halında törədilən tamah-zorakı cinayətlərin çoxepizodluğu, bu kateqoriyalı cinayətlərin istintaqının mürəkkəbliyi nəzərə alınmaqla istintaq prosesinin optimallaşdırılması, istintaqın səmərəliliyinin yüksəldilməsi məqsədilə proqram vasitələri kompleksi əsasında işləyən «Müstəntiqin kompüterləşdirilmiş iş yeri» yaradılmalı və onda qrup halında (xüsusən də mütəşəkkil dəstələr tərəfindən) törədilən cinayətlərin istintaqının planlaşdırılması və proqramlaşdırılması üzrə xüsusi proqram-texniki blok nəzərdə tutulmalıdır.

Yeni informasiya texnologiyalarının kriminalistikaya inteqrasiyası, belə texnologiyalardan, xüsusi halda kompüter modelləşdirilməsindən istifadə istintaq orqanlarının cinayətlərin istintaqı zamanı informasiya-analitik fəaliyyətinin nəticəliliyini, optimallığını və effektivliyini qat-qat artıra bilər. Bununla bağlı istintaqın avtomatlaşdırılmış informasiya sistemİnə və ayrı-ayrı cinayət növlərinin kriminalistik kompüter modellərinə əsaslanan qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqının kompüterləşdirilmiş metodikasının yaradılması üzrə xüsusi tədqiqatlar aparılmalı və bu proses intensivləşdirilməlidir.

Tədqiqatın «**Qrup halında törədilən tamah-zorakı cinayətlərə dair işlər üzrə ayrı-ayrı istintaq hərəkətlərinin təşkili və keçirilməsinin taktiki-prosessual xüsusiyyətləri**» adlanan və dörd yarımfəsildən ibarət olan üçüncü fəslində cinayətkar qruplar tərəfindən törədilən tamah-zorakı cinayətlərin istintaqı zamanı təxirəsalınmaz və digər hallarda həyata

keçirilən bir sıra istintaq hərəkətlərinin (hadisə yerinə baxış, dindirmə, tanınma və sair) təşkili və keçirilməsinin taktiki-prosessual və təşkilati-texniki xüsusiyyətləri sistemli şəkildə təhlil edilərək araşdırılmışdır.

Bu fəslin **«Cinayətkar qruplar tərəfindən törədilən tamah-zorakı cinayətlərin istintaqında hadisə yerinə baxışın taktiki-prosessual xüsusiyyətləri»** adlanan birinci yarımfəslində qeyd olunur ki, cinayətin baş verdiyinin, onun izlərinin, nəticələrinin, cinayətkar alət və vasitələrin, maddi sübut qismində çıxış edə biləcək predmet və əşyaların, mikroobyektlərin olması ehtimal olunan yerlərin, konkret məkanın müayinəsi üçün keçirilən istintaq hərəkətidir və onun icraatının əsas məqsədi iş üzrə həqiqətin müəyyən olunması üçün əhəmiyyət kəsb edən maddi informasiyanın, daha doğrusu bu informasiyanı daşıyan maddi obyektlərin aşkarı, qeydə alınması, götürülməsi və ilkin tədqiqindən ibarət olan hadisə yerinə baxış kimi istintaq hərəkəti qanunçuluq, təxirəsalınmazlıq, tamlıq, planlılıq, obyektivlik və digər taktiki-prosessual prinsiplərə riayət olunmaqla həyata keçirilməlidir.

Qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqı zamanı təkcə ayrı-ayrı ərazi hissələrinin deyil, həm də binaların, tikililərin, nəqliyyat vasitələrinin, meyitlərin (əgər varsa) və s. baxışını keçirmək və onları müayinə etmək lazım gəlir. Məhz bu hallar baxışın (müayinənin) çətinliyini, mürəkkəbliyini, zamana görə uzunmüddətliyini, xarakterinə görə müxtəlif təşkilati xarakterli hazırlıq tədbirlərinin keçirilməsini, baxış ilə bağlı yaranan digər çoxsaylı mürəkkəb vəzifələrin həll edilməsi zəruriliyini şərtləndirir. Qeyd olunanlar baxışa hazırlıq, onun keçirilməsi gedişində və bilavasitə başa çatması zamanı həyata keçirilən hərəkətlərin kompleks xarakterini göstərir. Doğurdan da, qrup halında tamah-zorakı xarakterli quldurluq, soyğunçuluq, hədə-qorxu ilə tələb etmə və s. kimi cinayətlərin istintaqı zamanı hadisə yerinə baxış iştirakçılarının fəaliyyəti müxtəlif mürəkkəb tədbirlər kompleksindən ibarətdir. Onlara aid edirlər: hadisəni öz gözləri ilə görənlərin və digər şahidlərin müəyyən edilməsi və onlarla söhbətlərin aparılması; hadisə yerində aşkar edilmiş predmetlərin, cinayətlərin alət və vasitələrinin, digər maddi sübutları ilkin tədqiqi; ətraf ərazinin, binaların, mənzillərin və otaqların yoxlanılması, xidməti-axtarış itlərindən istifadə edilməsi; digər təşkilati və əməliyyat-axtarış xarakterli tədbirlər.

Hadisə yerinə baxışa hazırlıq zamanı nəzərə alınan vacib aspektlərdən biri bu istintaq hərəkətinin iştirakçılarının seçilməsidir. Hadisə yerinə baxışa ilk növbədə xidməti-axtarış itlə birlikdə kinoloq, mütəxəssis-kriminalist, məhkəmə təbabəti üzrə ekspert (mütəxəssis) cəlb olunmalıdır. Müasir dövrdə cinayətkarlar, əmlakın talanması zamanı hüquq-mühafizə orqanlarının cinayətlərin açılması üzrə işlərini çətinləşdirmək, özlərinin ifşasını mümkünsüz etmək üçün hadisə yerində əl-barmaq, ayaqqabı və s. izləri məhv etmək, hadisə yerində qoymamaq üçün tədbirlər görürülər. Məhz

buna görə də mütəxəssis – kriminalistin baxışda iştirakı adi gözlə görünməyən izlərin aşkar edilməsində tətbiq edilən elmi-texniki vasitələrin, metodların və üsulların dairəsini xeyli genişləndirməyə imkan verir.

Qrup halında törədilən soyğunçuluq, quldurluq və sair kimi tamah-zorakı xarakterli cinayətlərin istintaqı zamanı hadisə yerinə baxışda mütəxəssisin iştirakı və bu istintaq hərəkət ilə bağlı axtarış-tədqiqat fəaliyyətinin nəzəri və praktiki aspektlərin analizi nəticələri əsasında ümumi şəkildə belə bir iştirakın əsas vəzifələri qismində göstərilə bilər: cinayətin maddi əks olunmuş izlərinin aşkarı, qeydə alınması və götürülməsi; izyaranma mexanizminin təyini; maddi izlərin və izdaşıyıcıların təbiətinin müəyyən edilməsi; aşkar edilmiş ayrı-ayrı maddi obyektlərin, hissələrə görə tamın bərpası; nümunələrin götürülməsi və ya əldə edilməsi; hadisə yerindən götürülmüş maddi obyektlərin eyniləşdirməyə, diaqnostiya və təsnifləşdirməyə yararlığının müəyyən edilməsi; hadisənin səbəb-nəticə, zaman əlaqələrinin müəyyən edilməsi; bütövlükdə cinayətin törədilmə mexanizminin, hazırlanması, həyata keçirilməsi üsulunun müəyyən edilməsi; cinayət törədən şəxslərin hər biri üçün xarakterik olan əlamətlərin, bacarıq və vərdişlərin, digər xüsusiyyətlərin müəyyən edilməsi; aşkar edilmiş izlərə görə cinayət törətmiş şəxsin əlamətlərinin və xassələrinin (zahiri əlamətlərin) modelləşdirilməsi; hadisə yerinin müayinəsi əsasında axtarış xarakterli fərziyyələrin irəli sürülməsində müstəntiqə və təhqiqatçıya kömək göstərilməsi; hadisənin ayrı-ayrı epizodları barədə məlumatların daşıyıcısı olan maddi və ideal izlərin axtarışı; kriminalistik texnika vasitələrindən və metodlardan istifadə edilməsinin təmini; hadisə yerinə baxış zamanı götürülmüş izlərin və digər obyektlərin təsvir edilməsində müstəntiqə kömək etmə; istintaq hərəkətinin keçirilməsi prosesinin və nəticələrinin, götürülmüş cinayət izlərinin təsvirində, onların xassə və əlamətlərinin detallaşdırılmasında, götürülmüş maddi sübutların, digər cinayət izlərinin qablaşdırılmasında və saxlanılmasında müstəntiqə kömək etmə və s.

Dissertasiya işinin üçüncü fəslinin ikinci yarımfəsli «**Qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqı zamanı dindirmə taktika-sının təşkilati-taktiki və prosessual aspektləri**» adlanır. Bu yarımfəsildə qrup halında törədilən tamah zorakı cinayətlərin istintaqı zamanı zərərçəkənlərin, şahidlərin, şübhəli və təqsirləndirilən şəxslərin, o cümlədən cinayətkar qrupun təşkilatçısının və cinayətlərin bilavasitə icraçılarının dindirilməsi zamanı nəzərə alınması və aydınlaşdırılması vacib olan hallar dairəsi müəyyən edilmişdir.

Elmi-texniki tərəqqi, elm və texnikanın inkişafı, ən müasir və effektiv texniki vasitələrin, metodların yaranaraq ictimai həyatın bütün sahələrinə geniş tətbiqi, digər elmlərlə yanaşı, kriminalistikanın da inkişafına mühüm təsir göstərərək ayrı-ayrı istintaq hərəkətlərinin, o cümlədən dindirmənin

yeni və daha səmərəli qeyri-ənənəvi üsullarının işlənib hazırlanmasını şərtləndirir. Belə üsullar, texniki vasitələr və metodlar sırasında poliqrafdan və hipnozdan istifadə, xəttin psixodiaqnostikası, videokonfrans əlaqə vasitələrinin tətbiqi ilə distansion dindirmə, bioritmologiyanın imkanların, musiqi və iy fonundan istifadə, koqnitiv müsahibə və s. göstərmək olar.

Azərbaycan Respublikası cinayət-prosessual məcəlləsində distansion dindirmənin aparılması imkanını nəzərdə tutulmamışdır. Hesab edirik ki, ədalət mühakiməsinə kömək edən şəxslərin təhlükəsizliyini təmin etmək məqsədilə distansion dindirmənin aparılması əsasları və şərtlərini müəyyən edən normanın cinayət-prosessual qanunda təsbit edilməsi zəruridir.

Hesab edirik ki, qrup halında törədilən cinayətlərə dair işlərin istintaqında şahidlərin və zərərçəkənlərin təhlükəsizliyinin təmini, onlardan düzgün ifadələrin alınmasının təmin edilməsi məqsədilə, habelə yeniyet-mələrdən, yaralı və ya ağır xəstə olan şəxsdən; müxtəlif obyektiv və subyektiv səbəblərdən çağırılması qeyri-mümkün olan şəxslərdən ifadələrin alınması zamanı videokonfrans əlaqə vasitələrinin tətbiqinin mümkünlüyünü nəzərdə tutan müddəaların prosessual qanunvericilikdə təsbit olunması məqsədəmüvafiqdir.

Azərbaycan Respublikası CPM-nin 232.1-ci maddəsində şübhəli şəxsin dindirilməsinin dərhal aparılması göstərilsə də, bu istintaq hərə-kətinin konkret olaraq hansı zaman müddətindən gec olmayaraq keçirilməsi qeyd olunmamışdır. Bir sıra xarici ölkələrin prosessual qanunvericiliyində, məsələn, Rusiya Federasiyasının Cinayət-prosessual məcəlləsində şübhəli şəxsin dindirilməsi onun faktiki olaraq tutulmasından 24 saat gec olmayaraq aparılmalı olması ilə bağlı müddəa təsbit olunmuşdur. Fikrimizcə, 24 saat olduqca böyük müddətdir və şübhəli şəxsin dindirilməsinin belə gec keçirilməsi cinayətin isti izlərlə açılması yolunda ciddi maneə yarada bilər. Bu və digər amillər nəzərə alınmaqla Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəllənin 232-ci maddəsinə «Şübhəli şəxsin dindirilməsi onun faktiki olaraq tutulmasından 12 saat gec olmayaraq aparılmalıdır» məzmununda yeni bəndin əlavə edilməsi məqsədəuyğun hesab edilməlidir.

Üçüncü fəslin «**Qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqında tanınma istintaq hərəkətinin təşkili və aparılmasının taktiki-prosessual xüsusiyyətləri**» adlanan üçüncü yarımfəslində qrup halında törədilən, tamah və zorakılıq kimi əlamətlərlə xarakterizə olunan cinayətlərin (quldurluq, hədə-qorxu ilə tələb etmə və s.) istintaqı gedişində tanınma kimi istintaq hərəkətlərinin təşkili və keçirilməsi ilə bağlı bir sıra problemli məsələlər nəzərdən keçirilərək təhlil edilmiş, qeyd olunan cinayətlərə dair işlərdə tanınmanın həyata keçirilməsinin, təşkilati, texniki, taktiki və prosessual xüsusiyyətləri qeyd olunmuş, bu istintaq hərəkətinin səmərəliliyinin yüksəldilməsinə istiqamətlənən konkret təkliflər və

tövsiyələr formulə edilərək əsaslandırılmışdır.

Həmin yarımfəsildə göstərilir ki, bir sıra ağır və xüsusilə ağır cinayətlərin, xüsusən də qrup halında, mütəşəkkil dəstələr tərəfindən törədilən tamah-zorakı cinayətlərin istintaqında şahidlərin və zərərçəkənlərin təhlükəsizliyinin, onların həyatının, sağlamlığının, əmlakının, digər maraqlarının müdafiəsinin daha yüksək səviyyədə təmin edilməsi məqsədilə tanınma və üzləşdirmə kimi istintaq hərəkətlərinin icraatı zamanı videokonfrans əlaqənin tətbiqinin əsaslarını və qaydalarını tənzimləyən yeni bir maddənin daxil edilməsi məntiqi cəhətdən düzgün hesab edilməlidir.

Azərbaycan Respublikasının CPM-in 239.9-cu maddəsində şəxsin və ya predmetin fotoşəkillərə görə tanınma üçün təqdim edilməsi imkanı müəyyən edilsə də, eyni zamanda videoyazıya görə tanınmanın mümkünlüyünü göstərən konkret müddəalar prosessual qanunvericilikdə əks olunmamışdır.

Halbuki, məlum olduğu kimi fotoşəkillərlə müqayisədə insanı hərəkəti müxtəlif rakurslarda və vəziyyətlərdə təsvirinin ardıcıl surətdə qeydə alındığı videokadrlar insanın zahiri görkəmi haqqında böyük həcmdə informasiya daşıyıcısıdır.

Fikrimizcə, cinayət-prosessual tənzimləmədə mövcud boşluq Azərbaycan Respublikası CPM-nin 239.9-cu maddəsində aşağıdakı məzmunda dəyişikliklərin edilməsi ilə aradan qaldırıla bilər: «Obyektin xarici əlamətlərinə görə təqdim edilməsi mümkün olmadıqda tanınma onun videotəsviri üzrə də aparıla bilər. Bu zaman təqdim edilən videotəsvirlərin sayı üçdən az olmamalıdır».

Şəxsin tanınma üçün təqdim edilməsi ilə bağlı əsas qaydaları təsbit edən Azərbaycan Respublikası CPM-in 239-cu maddəsində şəxsin səsə və nitqə görə tanınma imkanı birbaşa təsbit olunmamışdır. Prosessual qanunvericilikdəki mövcud boşluq CPM-in 239-cu maddəsinə aşağıdakı məzmunlu müddəanın əlavə edilməsi yolu ilə aradan qaldırıla bilər: «Şəxs zahiri görkəminə, həmçinin yeriş, səs və nitq əlamətlərinə görə tanınma üçün təqdim edilə bilər».

Səsə və nitqə görə tanınma üçün təqdim etmənin gedişi və nəticələrini təkcə istintaq hərəkətinin protokolunda deyil, həm də audio və ya videoyazı vasitələrində əks etdirmək zəruriliyi ilə bağlı müddəa da prosessual qanunvericiliyə daxil edilməlidir. Bununla da tanınan şəxsin sonradan tanınmanın düzgün aparılmadığını və ya qanunsuz aparıldığını söyləmək üçün əsasları aradan qaldırılmış olur.

Üçüncü fəslin «**Qrup halında törədilən tamah-zorakı cinayətlərə dair işlər üzrə sübutetmədə məhkəmə ekspertizalarının rolu və əhəmiyyəti**» adlanan dördüncü yarımfəsildə qrup halında törədilən soyğunçuluq, quldurluq, tamah məqsədilə qəsdən adam öldürmə və digər cinayətlərin

açılması və istintaqında, cinayətkarların ifşa olunaraq məsuliyyətə cəlb olunmasında, bütövlükdə sübutetmə prosesində ballistik, trasoloji, psixoloji, materialların, maddələrin və onlardan hazırlanmış məmulatların və digər məhkəmə ekspertizalarının rolu və əhəmiyyəti təhlil edilmiş, qeyd olunan cinayətlərə dair işlərdə məhkəmə ekspertizalarından, ekspert rəylərindən istifadənin müasir vəziyyəti qiymətləndirilmiş, cinayətkar qruplar tərəfindən həyata keçirilən cinayətlərin açılması və istintaqında qeyri-ənənəvi məhkəmə ekspertizalarından istifadə imkanları araşdırılmışdır.

Cinayət işlərinin materiallarının öyrənilməsi, ekspertlər və müstəntiqlər arasında keçirilən sorğuların nəticələri göstərir ki, bu növ cinayətlərə dair işlərdə məhkəmə-trasoloji, fonoskopik, ballistik, xətşünaslıq, sənədlərin texniki tədqiqi, bioloji, materialların, maddələrin və onlardan hazırlanmış məmulatların ekspertizaları və digərləri təyin edilir.

Məhkəmə Ekspertizası Mərkəzinin ekspertləri arasında keçirilən sorğuların nəticələri, ekspert təcrübəsinin ümumiləşdirilməsi əsasında qrup halında törədilən tamah-zorakı cinayətlərin ibtidai araşdırması zamanı təhqiqatçılar və müstəntiqlər tərəfindən yol verilən nöqsanların əsasən aşağıdakılardan ibarət olduğu müəyyən edilmişdir: hadisə yerində aşkar edilmiş maddi sübutların düzgün götürülməməsi və düzgün qablaşdırılmaması; maddi sübutların və müqayisə üçün nümunələrin ekspert tədqiqatına tam və kifayət edəcək həcmdə (sayda) təqdim edilməməsi; bəzi hallarda ekspertiza qarşısında qoyulan sualların həlli üçün heç bir əhəmiyyət kəsb etməyən maddi sübutların ekspertizaya göndərilməsi; məhkəmə ekspertizasının təyin edilməsi barədə qərarda ekspertizanın adının və növünün düzgün göstərilməməsi; ekspertiza təyin edilməsi barədə qərarda baş vermiş hadisənin müfəssəl təsvir olunmaması; ekspert qarşısında mahiyyəti aydın olmayan, bəzən isə hüquqi xarakter daşıyan, ekspertin səlahiyyətinə daxil olmayan, xüsusi bilik tələb etməyən sualların qoyulması; tamah-zorakı xarakterli cinayətlərin, xüsusən də qrup halında törədilən kriminal əməllərin istintaqı zamanı hadisə yerində mikroobyektlərin, mikroizlərin böyük sübutedici əhəmiyyətinə baxmayaraq qeyd olunan maddi sübutlar haqqında faktiki məlumatların əldə edilməsi üçün ekspertizaların az-az hallarda təyin edilməsi və s.

Cinayətkarlığın vəziyyəti, dinamikası və strukturunda kəmiyyət-keyfiyyət xarakterli dəyişikliklərin baş verməsi, bu neqativ sosial-hüquqi hadisədə bir sıra yeni neqativ meyllərin meydana gəlməsi, cinayətkar fəaliyyətin mütəşəkkilliyinin, peşəkarlığının artması, qrup halında törədilən ağır və xüsusilə ağır cinayətlərin xüsusi çəkisinin yüksəlməsi məhkəmə ekspertiza icraatının yeni istiqamətlərinin yaranması və inkişafı zəruriliyni şərtləndirir. Bu yeni istiqamətlər yeni və hələ ki, ənənəvi olmayan, qeyri-ənənəvi ekspertiza növlərində reallaşdırılır. Eyni zamanda qeyd edilməlidir

ki, istintaq orqanları, müstəntiqlər və təhqiqatçılar tərəfindən, qrupun strukturunun, rolların paylanmasının, qrupun fəal və sıravi iştirakçılarının, liderinin və s. müəyyən edilməsində məhkəmə-psixoloci ekspertizası, həmçinin mikroobyektlərin və mikrohissəciklərin, o cümlədən lifli materialların və onlardan hazırlanmış məmulatların kriminalistik ekspertizası kimi qeyri-ənənəvi ekspertizaların imkanlarından hələ də lazımi dərəcədə istifadə edilmir.

Cinayətkar qruplar tərəfindən törədilən tamah-zorakı cinayətlərin istintaqı zamanı yaranan çətinliklərdən biri də cinayətkar qrupun strukturunun üzə çıxarılması, qrupun hər bir iştirakçısının rolunun və qrupdaxili münasibətlərin, mövcud əlaqələrin, şəxsiyyətlərarası münasibətlərin müəyyən edilməsi ilə bağlıdır. Qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqı üçün xarakterik olan bu və ya digər hallarda məhkəmə-psixoloji ekspertizasının təyini və aparılması zəruri hesab edilməlidir.

Psixologiya elminin müasir inkişaf səviyyəsi məhkəmə-psixoloji ekspertizası çərçivəsində: cinayətkar qrupun qeyri-formal strukturunu, cinayətkar qrupda şəxsiyyətlərarası münasibətlərin xarakterini, liderlik xüsusiyyətlərinə malik olan, zorakılığa meylli olan şəxslərin müəyyən etməyə, qrup üzvlərinin, o cümlədən qrupun liderinin və ya təşkilatçısının psixoloji xüsusiyyətlərini öyrənməyə imkan verə bilər. Dissertasiya işinin bu yarımfəslində qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqı zamanı cinayətkar qrupun strukturunun və onun ayrı-ayrı üzvlərinin cinayətkar fəaliyyətdə konkret rolunun, qrup üzvlərinin, xüsusən də onun təşkilatçılarının və liderlərinin fərdi-psixoloji xüsusiyyətlərinin müəyyən edilməsi məqsədilə ekspert-psixoloqlar qarşısında qoyulması mümkün olan suallar dairəsi göstərilmişdir.

Dissertasiya işinin **«Nəticə»** hissəsində tədqiqatın əsas nəticələri, konkret tövsiyələr və elmi-praktiki təkliflər öz əksini tapmışdır.

Hesab edirik ki, qrup halında törədilən tamah-zorakı cinayətlərin açılması və istintaqının səmərəliliyinin yüksəldilməsi məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir: qrup halında törədilən cinayətlərin istintaqı üzrə ixtisaslaşan əməliyyat-istintaq qruplarının, briqadaların yaradılması; qrup halında cinayətlərin istintaqı ilə məşğul olan müstəntiqlər və təhqiqatçılar üçün xüsusi hazırlıq və ixtisasartırma kurslarının təşkili; qrup halında cinayətlərin istintaqı zamanı mütəəxssis-psixoloqların cəlb edilməsi praktikasının genişləndirilməsi, cinayətkar qrupun liderinin müəyyən edilməsi üçün məhkəmə-psixoloji ekspertizaların imkanlarından daha geniş şəkildə istifadə edilməsi və sair.

Bir sıra ağır və xüsusilə ağır cinayətlərin, o cümlədən qrup halında, xüsusən də mütəşəkkil dəstələr tərəfindən törədilən tamah-zorakı xarakterli cinayətlərin açılması, istintaqı və qarşısının alınmasında «istintaq

sövdələşməsi» kimi institutun Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə daxil edilməsini məqsədəuyğun hesab edirik. Belə bir cinayət-prosessual institut bir sıra xarici ölkələrin qanunvericiliyində nəzərdə tutulmuşdur. Cinayət-Prosessual Məcəllədə belə bir normanın təsbiti qrup halında törədilən cinayətlərin tez bir zamanda açılmasına, cinayətkar qrupların ən təhlükəli üzvlərinin, liderlərinin və təşkilatçılarının vaxtında ifşa edilərək məsuliyyətə cəlb olunmasına imkan verəcəkdir. Qeyd edək ki, Azərbaycan Respublikasının Açıq hökumətin təşfiqinə dair Milli Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərdən biri də korrupsiya cinayətlərinə dair işlərdə «istintaq sövdələşməsi» institutunun tətbiqi ilə bağlı təkliflərin işlənib hazırlanması ilə bağlıdır. Fikrimizcə, «istintaq sövdələşməsi» institutunun tətbiqi təkcə korrupsiya cinayətlərinə aidiyyətdə deyil, həm də qrup halında törədilən və zorakılıqla müşaiyət olunan ağır və xüsusilə ağır cinayətlərə dair işlərdə də nəzərdə tutulmalıdır.

Hesab edirik ki, Azərbaycan Respublikası CPM-də «İstintaq hərəkətlərinin aparılması» adı altında ayrıca bir fəslin nəzərdə tutulması və bu fəsildə «istintaq hərəkətlərinin aparılmasının ümumi şərtləri», «istintaq hərəkəti protokolu», «istintaq qrupu tərəfindən ibtidai araşdırmanın aparılmasının ümumi şərtləri», istintaq hərəkətlərinin aparılmasında mütəxəssisin, ekspertin, tərcüməçinin, hal şahidlərinin iştirakı», «istintaq hərəkətlərinin icraatında elmi-texniki vasitələrin və üsulların tətbiqinin ümumi şərtləri» və sair kimi maddələrin daxil edilməsi məqsədəuyğundur.

Hesab edirik ki, prosessual qanunvericiliyə həmçinin «əməliyyat-istintaq qrupu tərəfindən ibtidai istintaqın aparılması» kimi ayrıca bir maddənin nəzərdə tutulması və burada mürəkkəb, çoxepizodlu, habelə qabaqcadan əlbir olan bir qrup şəxs və mütəşəkkil dəstə tərəfindən törədilən ağır və xüsusilə ağır cinayətlərin istintaqının əməliyyat-istintaq qrupu tərəfindən aparılması ilə bağlı müddəalar öz əksini tapmalıdır.

Tədqiqatın **«Əlavə»** hissəsində elmi işçilər, müstəntiqlər və ekspertlər arasında araşdırılan problemlərə dair fikir və mövqelərin öyrənilməsi üzrə anket verilmişdir.

Müəllifin dissertasiya tədqiqatı ilə əlaqədar aşağıdakı elmi əsərləri çap edilmişdir:

1. Qrup halında tamah məqsədilə törədilən zorakı cinayətlərin açılması və istintaqının bəzi məsələləri //«Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri» Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin elmi əsərlər məcmuəsi. Bakı, 2008, №47, s.94-99.

2.Групповые корыстно-насильственные преступления, как объект криминалистического исследования //«Теория и практика судебной экспертизы и криминалистики». Харьков, 2011, № 11, с.144-

153.
3. Qrup halında törədilən tamah-zorakı cinayətlərin bəzi kriminalistik xüsusiyyətləri// //«Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri» Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin elmi əsərlər məcmuəsi. Bakı, 2011, №55, s.187-192.

4. Qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqı zamanı irəli sürülən tipik istintaq fərziyyələri//«Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri» Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin elmi əsərlər məcmuəsi. Bakı, 2012, №57, s.43-47.

5. Qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqı zamanı yaranan tipik istintaq şəraitləri//«Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri» Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin elmi əsərlər məcmuəsi. Bakı, 2013, №58, s.141-146.

6. Mütəşəkkil cinayətkar qrupların kriminalistik xarakteristikası: anlayışı, strukturu, əsas elementləri//«Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri» Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin elmi əsərlər məcmuəsi. Bakı, 2014, №61, s.105-112.

7. Qrup halında törədilən tamah-zorakı cinayətlərin bəzi xüsusiyyətləri//«Hüquq elminin müasir problemləri: Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları» mövzusuna həsr edilmiş elmi-praktiki konfrans. Azərbaycan Respublikası Konstitusiya məhkəməsi, İnsan Hüquqları üzrə müvəkkili (Ombudsman) aparatı, Azərbaycan Respublikası Prezidenti yanında «Bilik» fondu, Azərbaycan MEA Fəlsəfə və Hüquq İnstitutu (5-6 may). Bakı, 2016, s.296-300.

8. Qrup halında törədilən tamah-zorakı cinayətlərə dair işlər üzrə sübutetmədə məhkəmə ekspertizalarının rolu və əhəmiyyəti// Naxçıvan Dövlət Universiteti elmi əsərlər. İctimai elmlər seriyası. Naxçıvan-2016, № 5 (79) S.195-198.

9. Qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqı zamanı dindirmə taktikasının təşkilati-taktiki və prosessual aspektləri//AR DİN Polis Akademiyasının Elmi xəbərləri. Bakı-2017 № 2 s.100-110.

# SUMMARY

The thesis of Rashada Fakhraddin gizi Guliyeva on the topic "Tactical and procedural peculiarities of investigation of the group mercenary and violent crimes"submitted for a Ph.D. degree in law by specialty 5612.-1- "Criminal trial; criminology and forensic examination; operational and search activity" is an independent and completed research workwhich has scientific novelty.

The thesis is devoted to the main tactical and procedural peculiarities ofinvestigation of the group mercenary and violent crimes.

The main objective of the research workbased on study and analysisof the criminalistics characteristics of criminal grouppings and mercenary and violent crimescommitted by them, their structure, importance of the main elements included in this structure, formation of criminal grouppings with the goal of committing mercenary and violent crimesis todevelopa number of recommendations of tactical and procedural nature for typical investigative situations,programming of the investigation, putting forward and verification of versions,inspection of the scene, interrogation, identification and other investigative actions ininvestigation of the group mercenary and violent crimes, as well as to set upa specific package of recommendations for improvingprovisions of the criminal procedural legislation that regulate organization and conduct of investigative actions on such crimes.

The thesis consists of introduction, three chapters, conclusion, annexes and references.

The "Introduction" exploresrelevance of the topic, object, subject, purpose and objectives, methodological foundations of the research, scientific novelty of the topic, main provisions put forth for defense, theoretical and practical significance, empirical basis of researchand structure of the thesis.

Chapter I called "Criminalistics characteristics of criminal groups and group mercenary and violent crimes"comprehensively examines and studies the concept, structure and main elements of the criminalistics characteristicsof criminal groups and group mercenary and violent crimes, criminalisticspeculiarities of group mercenary and violent crimes, a complex of issues related to criminalistics classification of criminal groups committing mercenary and violent acts.

Chapter II called "Typical investigative situations andversions ininvestigation of the group mercenary and violent crimes, programming of the investigation" systematically studies arange of issues relating to typical investigative situations arising ininvestigation of group mercenary and

violent crimes: investigative versions arising frominvestigation of such kind of offences, as well as programming of investigation of the crimes that fall under this category.

Chapter III called "Tactical and procedural peculiarities of the organization and conduct of separate investigative actions ininvestigation of the group mercenary and violent crimes"systematically analyzes and studies the tactical, procedural, organizational and technical peculiarities of organization and conduct of a number of urgent and other investigative actions (inspection of the scene, interrogation, identification, etc.) ininvestigation of the group mercenary and violent crimes.

Conclusion of the thesis includes main outcomes of the research and puts forward specific recommendations as well as scientific and practical proposals.

## РЕЗЮМЕ

Диссертация Рашады Фахраддин гызы Гулиевой на тему «Тактико-процессуальные особенности расследования групповых корыстно-насильственных преступлений», представленная на соискание учёной степени доктора философии по праву по специальности 5612.-1-«Уголовный процесс; криминалистика и судебная экспертиза; оперативно-розыскная деятельность является самостоятельной и завершённой научно-исследовательской работой, обладающей научной новизной. Диссертация посвящена основным тактико-процессуальным особенностям расследования групповых корыстно-насильственных преступлений.

Основная цель исследования – это на основе изучения и анализа криминалистической характеристики преступных групп и совершаемых ими корыстно-насильственных преступлений, их структуры, сущности основных элементов, входящих в эту структуру, формирования преступных групп, имеющих целью совершение корыстно-насильственных преступлений, разработка ряда рекомендаций тактико-процессуального характера по типичным следственным ситуациям, программированию следствия, выдвижению и проверке версий, осмотру места происшествия, допросу, опознанию и др. следственным действиям при расследовании групповых корыстно-насильственных преступлений, а также создание конкретного пакета рекомендаций по совершенствованию положений уголовно-процессуального законнодательст-ва которые регулируют организацию и

проведение следственных действий по расследованию такого рода преступлений.

Диссертационная работа состоит из введения, трёх глав, заключения, дополнений и списка использованной литературы.

Во «Введении» раскрыты актуальность темы, объект, предмет, цели и задачи, методологические основы исследования, научная новизна темы, основные положения, выносимые на защиту, теоретическое и практическое значение, эмпирическая база исследования, а также структура диссертации.

В главе I – «Криминалистическая характеристика преступных группировок и группповых корыстно-насильственных преступлений» комплексно рассмотрены и исследованы понятие, структура и основные элементы криминалистической характеристики преступных групп и групповых корыстно-насильственных преступлений, криминалистические особенности групповых корыстно-насильственных преступлений, комплекс вопросов связанных с криминалистической классификацией преступных групп совершающих корыстно-насильственные деяния.

В главе II – «Типичные следственные ситуации и следственные версии при расследовании групповых корыстно-насильственных преступлений, программирование расследования» был системно исследован круг вопросов, связанных с типичными следственными ситуациями, возникающими при расследовании групповых корыстно-насильственных пресступлений: следственные версии, возникающие при расследовании такого рода деяний, а также программирование расследования преступлений этой категории.

В главе III – «Тактико-процессуальные особенности организации и проведения отдельных следственных действий при расследовании групповых корыстно-насильственных преступлений» были системно проанализированы и исследованы тактико-процессуальные и организационно-технические особенности организации и проведения ряда неотложных и других следственных действий (осмотр места происшествия, допрос, опознание и т.д.) при расследовании групповых корыстно-насильственных преступлений.

В заключении диссертации подводятся основные итоги исследования, а также отражены конкретные рекомендации и научно-практические предложения.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**РАШАДА ФАХРАДДИН кызы ГУЛИЕВА**

# ТАКТИКО-ПРОЦЕССУАЛЬНЫЕ ОСОБЕННОСТИ РАССЛЕДОВАНИЯ ГРУППОВЫХ КОРЫСТНО-НАСИЛЬСТВЕННЫХ ПРЕСТУПЛЕНИЙ

**Специальность: 5612.01 - Уголовный процесс; криминалистика и судебная экспертиза; оперативно-розыскная деятельность**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание ученой степени доктора философии по праву**

**БАКУ - 2018**